2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Ramiz İbrahimov və Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 noyabr 2015-ci il tarixli 159 və 161 saylı müraciətlər üzrə

**BİRGƏ RƏYİ**

Bakı şəhəri 12 noyabr 2015-ci il

Biz, ekspert qrupunun üzvləri Ramiz İbrahimov və Validə Kazımova 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 38 saylı Nizami II (Gəncə) seçki dairəsi üzrə namizədliyi özü tərəfindən irəli sürülmüş və qeydə alınmış Əliyev Eldar Paşa oğlunun və müşahidəçisi Quliyeva Təranə Nuru qızının 2015-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərini araşdıraraq aşağıdakıları müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən, eyni seçki dairəsindən və eyni mübahisə predmetinə aid olduğundan ekspert qrupunun əlaqələndiricisi (koordinatoru) məlumatlandırılmaqla bir icraatda birləşdirilərək araşdırılmış və birgə rəy verilmişdir.

Araşdırma prosesində, 11 noyabr 2015-ci ildə deputatlığa namizəd Əliyev Eldar Paşa oğlu və müşahidəçisi Quliyeva Təranə Nuru qızı yazılı ərizə ilə Mərkəzi Seçki Komissiyasına müraciət edərək şikayətlərindən imtina etdiklərini bildirərək həmin şikayətlər üzrə araşdırmaya xitam verilməsini xahiş etmişlər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **rəyə gəldik :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 38 saylı Nizami II (Gəncə) seçki dairəsindən deputatlığa namizədliyi özü tərəfindən irəli sürülmüş və qeydə alınmış Əliyev Eldar Paşa oğlunun və müşahidəçisi Quliyeva Təranə Nuru qızının Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 noyabr 2015-ci il tarixli 159 və 161 saylı müraciətləri üzrə araşdırmaya xitam verilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvləri Ramiz İbrahimov

Validə Kazımova